# Qarabağ: səngərlər və istehkamlar quruculuq meydanına çevrilir

❒ ***Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında şanlı və rəşadətli Silahlı Qüvvələrimiz 33 ildən bəri davam edən qanlı-qadalı Ermənistan– Azərbaycan münaqişəsinə cəmi 44 gün ərzində son qoydu. Bu il sentyabrın 27-də başlayan Vətən müharibəsi adlandırdığımız İkinci Qarabağ savaşı noyabrın 10-na keçən gecə tarixi Qələbə ilə sona çatdırıldı. Təcavüzkar Ermənistan sarsıdıcı məğlubiyyətə uğradıldı, işğalçı dövlətin başçısı 10 noyabr bəyanatını imzalamaqla ölkəsinin acı məğlubiyyətini, təslim olduğunu etiraf etmək məcburiyyətində qaldı.***

***Azad edilmiş torpaqların bərpası ilə bağlı mənim tərəfimdən bir çox önəmli qərarlar qəbul edilib, qərargah yaradılıb. Qərargaha Prezident Administrasiyasının rəhbəri rəhbərlik edir. Bütün torpaqlar planlı şəkildə bərpa ediləcək. Orada insanlar üçün şərait yaradılacaq, elə şərait ki, dünya üçün nümunə olacaq. Hər şey planlı və əsaslı şəkildə olmalıdır. Mən əminəm ki, biz buna nail olacağıq. Biz hamımız istəyirik ki, dağıdılmış şəhərlər tezliklə bərpa edilsin, amma, eyni zamanda, elə olsun ki, bu, oraya qayıdacaq insanların rahatlığını təmin etsin və müasir, güclü Azərbaycanın gücünü bütün dünyaya göstərsin.***

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

Azərbaycanın Ali Baş Komandanının başçılığı ilə qalib ordumuz XXI əsrin qəhrəmanlıq dastanını yazdı, dünya hərb tarixinə döyüş yeniliyi gətirdi. Mötəbər beynəlxalq dairələrdə bildirildiyi kimi, dünya hələ uzun illər bu rəşadətdən, Azərbaycanın Ali Baş Komandanının sərkərdəlik məharətindən, zabit və əsgərlərimizin yenilməz qəhrəmanlığından söz açacaq, bu döyüş təcrübəsindən yararlanmağa çalışacaq. "Şuşa əməliyyatı" isə tarixi fəthlər sırasında öyrəniləcək. 44 günlük müharibə ilə Azərbaycan həm də kimin kim, nəyin nə olduğunu bir daha aləmə sübut etdi. Dostlar da bilindi, düşmənlər də, ikili-üçlü oyunlarla aranı qatanlar da. Onsuz da bəzilərinin mövqeyi çoxdan bəlli idi, amma bu dəfə pərdə yırtıldı.

Azərbaycan Ordusu ulu öndər Heydər Əliyevin dövründən əsası qoyulan siyasət və strategiya nəticəsində dünyanın güclü orduya malik 50 ölkəsi sırasında inamla addımlağa başladı və bu gün də addımlamaqda, ön sıralara yüksəlməkdədir. Bütün bunlar 2016-cı ilin Aprel döyüşlərində və II Qarabağ müharibəsində öz tarixi nəticələrini verdi.

Vətən müharibəsində xalqımızın Ali Baş Komandan İlham Əliyevin ətrafında bir yumruq kimi birləşməsi Azərbaycanın erməni faşizmi üzərində qələbənin əldə edilməsində həlledici rol oynadı. Ölkə Prezidentinin başçılıq etdiyi şanlı, rəşadətli Azərbaycan Ordusu, qəhrəman, igid Azərbaycan Ordusu müqəddəs Vətən müharibəsi ilə 32 illik qanlı Qarabağ münaqişəsinə son qoydu. 44 günlük qalibiyyətli savaşla düşmən və onun havadarları üzərində tarixi, möhtəşəm Zəfər çalındı. İşğalçı, faşist və terror dövləti olan Ermənistan güclü Azərbaycan qarşısında tab gətirə bilmədi, təslim oldu, məğlub edildi, kapitulyasiya aktına imza atdı, məğlubiyyətini rəsmən etiraf etdi.

Azərbaycan xalqı 32 il dözdü, səbr etdi, təmkin nümayiş etdirdi və sonda da qanuni, halal qələbəsini əldə etdi. Bəli, bu Zəfər heç də asan başa gəlmədi. Bunun üçün illər, onilliklər lazım gəldi. Azərbaycan Prezidenti İlham Əliyev Qarabağ münaqişəsini tarixin zibilliyinə atmış ümummilli qələbəmizi belə dəyərləndirib: "Sentyabrın 27-də, ermənilərin xaincəsinə hücumundan sonra mən Ali Baş Komandan kimi "İrəli!" əmrini verdim. Biz öz xalqımızı, öz ölkəmizi müdafiə etməli idik. Bizim əməliyyatlar nəticəsində 44 gündən sonra düşmən kapitulyasiya etdi. Bu müddət ərzində biz 300-dən artıq yaşayış məntəqəsini, strateji yüksəklikləri, Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərlərini, şəhər tipli Suqovuşan, Hadrut qəsəbələrini, Xocavənd rayonunun bir hissəsini, Murovdağ dağ silsiləsini, həmçinin Laçın, Kəlbəcər rayonlarının bir hissəsini azad etdik.

Noyabrın 8-də isə haqlı olaraq, Qafqazın incisi və Azərbaycan xalqının qəlbi hesab edilən Azərbaycanın qədim Şuşa şəhəri erməni işğalından azad olundu. Bununla da, əslində, hərbi əməliyyatlara son qoyuldu, çünki Şuşa şəhərinin alınmasından və azad edilməsindən sonra erməni ordusunun hər hansı müqaviməti tamamilə mənasız idi və hərbi əməliyyatların davam etdirilməsi böyük insan itkisinə səbəb ola bilərdi. Çünki erməni ordusu darmadağın edilmiş və mənəvi cəhətdən sarsıdılmışdı, onun bir hissəsi mühasirədə idi."

Artıq Dağlıq Qarabağ münaqişəsindən söhbət düşəndə biz yalnız onu deməliyik ki, bu münaqişə keçmişdə qalıb. Bu, artıq tarixdir və regionun gələcəyi çox cəhətdən Ermənistan rəhbərliyinin vəziyyəti nə dərəcədə düzgün qiymətləndirə bilməsindən, sülhün uzunmüddətli və davamlı olması üçün düzgün addımlar atmasından asılı olacaq.

Beləliklə, Vətən müharibəsinin başa çatması 32 illik qanlı, dağıdıcı münaqişəsini arxada qoymaqla yanaşı, Qarabağa böyük qayıdışa start verdi, Qafqaz regionunda qonşu dövlətlərin illərdən bəri arzu olunan çoxtərəfli əməkdaşlığı üçün geniş meydan açdı. Prezident İlham Əliyev ötən il dekabrın 10-da mətbuata bəyanatında bildirdiyi kimi: "Ənənəvi Türkiyə–Azərbaycan–Gürcüstan işbirliyi var. Eyni zamanda, Azərbaycan–Rusiya–İran işbirliyi var. Türkiyə–Rusiya–İran işbirliyi var. Yəni, bütün bu işbirliyi platformalarını biz ümumiləşdirib vahid platforma kimi təqdim edə bilərik. Əgər Ermənistan rəhbərliyi müharibədən düzgün nəticələr çıxararsa və öz əsassız iddialarından əl çəkərsə və gələcəyə baxarsa, o zaman onların da bu platformada yeri ola bilər".

Vətən müharibəsində möhtəşəm qələbə Azərbaycan dövlətinin qarşısında yeni hədəflər və vəzifələr qoyub. Ötən onilliklərdə iqtisadiyyatımız yaxşılaşdıqca, iqtisadi imkanlarımız yüksəldikcə, büdcəimiz də artıb, daha sosialyönümlü olub. İndi bizi növbəti mübarizə, növbəti və uzun yol, mərhələ gözləyir.

Yanvar ayında Moskvada Azərbaycan–Ermənistan və Rusiyanın dövlət başçılarının görüşündə əldə edilmiş razılaşmalar Qarabağda bərpa və quruculuq işlərinin ümumi prinsiplərinin gerçəkləşdirilməsi üçün əməli addımlara meydan açıb. Birgə bəyanata əsasən, hökumət başçılarının müavinlərinin rəhbərliyi ilə yaradılan işçi qrup, ilk növbədə, bölgədə kommunikasiyaların bərpası və açılması tədbirləri üzərində işə başlayıb. İndi Qarabağdakı səngərlərin və istehkamların yerində irimiqyaslı bərpa və quruculuq işlərinin özülü qoyulur.

Müharibə bitəndən sonrakı müddətdə Qarabağda Rusiya sülhməramlılarının tənzimləyici və əlaqələndirici fəaliyyəti ilə yanaşı, Ağdam rayonunda Rusiya–Türkiyə Monitorinq Mərkəzinin yaradılması üzrə də intensiv iş aparılıb və həmin mərkəz bugünlərdə uğurla fəaliyyətə başlayıb. Bunlar bölgədə sülh və təhlükəsizliyin növbəti təminatlarını yaratmağa xidmət edir. Azərbaycan dövlətinin rəhbərinin vurğuladığı kimi, ölkəmiz Qafqazda sülhü, əmin-amanlığı bundan sonra da qorumaq, dinc qonşuluq münasibətlərini inkişaf etdirmək niyyətindədir

Biz müharibə bitəndən dərhal sonra işğaldan azad olunmuş ərazilərimizin quruculuğuna, bərpasına başlamışıq. Bu, heç də asan və tez başa gələn bir məsələ deyil. Çünki məhv edilmiş, dağıdılmış infrastruktur yenidən yaradılmalı və bərpa edilməlidir, yenidən yollar, elektrik, qaz, kommunikasiya xətləri çəkilməli, körpülər salınmalıdır və sair. Həmçinin, işğaldan azad olunmuş, uzun illər tapdaq altında qalmış ərazilərimiz minalardan təmizlənməlidir.

Bəli, biz bu münaqişəni öz gücümüzlə 44 gündə həll etdiyimiz kimi, ərazilərimizin bərpası və quruculuğu işlərini də səbrlə, təmkinlə, ardıcıl addımlarımız, ən əsası, öz gücümüzlə həll edə biləcəyik. Bunun üçün də kifayət qədər maddi və mənəvi resurslarımız, əmək ehtiyatlarımız, maliyyəmiz var. Prezident İlham Əliyevin dediyi kimi, biz müharibədə qalib gəldiyimiz kimi, Qarabağın bərpa edilib dirçəldilməsinin də öhdəsindən layiqincə gələcəyik. Artlq bu istiqamətdə dövlət başçısının tapşırığı ilə müvafiq dövlət strukturları, aidiyyatı orqanlar ilkin dəyərləndirmələrə, hesablamalara başlayıblar.

Prezident İlham Əliyev bugünlərdə Azərbaycan Televiziyasına verdiyi müsahibəsində ölkənin qarşısında duran ən önəmli vəzəfələr sırasında işğaldan azad edilmiş bölgələrin bərpası prosesinin indiki vəziyyətinə və gələcək mahiyyətinə də aydınlıq gətirib. Dövlət başçısı bildirib ki, bu prosesin əsasını dövlətin aydın, əsaslandırılmış və sistemli siyasəti təşkil edəcək, hər şey bərpa edilmiş ərazilərə qayıdan insanların rifahına və ölkəmizin dünyadakı imicinin daha da yüksəldilməsinə xidmət edəcək.

Bütün torpaqlar planlı şəkildə bərpa ediləcək. Orada insanlar üçün şərait yaradılacaq, elə şərait ki, dünya üçün nümunə olacaq. Hər şey planlı və əsaslı şəkildə olmalıdır. Mən əminəm ki, biz buna nail olacağıq. Biz hamımız istəyirik ki, dağıdılmış şəhərlər tezliklə bərpa edilsin, amma, eyni zamanda, elə olsun ki, bu, oraya qayıdacaq insanların rahatlığını təmin etsin və müasir, güclü Azərbaycanın gücünü bütün dünyaya göstərsin".



Yeri gəlmişkən, bir daha qeyd edək ki, Azərbaycan dövləti qlobal dünya böhranı, eləcə də pandemiya dövründə heç bir sosial proqramı dayandırmadı, heç bir dövlətdən, beynəlxalq təşkilatlardan yardım istəmədi, çünki bizim kifayət qədər valyuta ehtiyatlarımız var. Xarici borcun həcminin ÜDM-ə nisbəti bir çox ölkələrdəki borclanmadan dəfələrlə azdır. Onu da qeyd edək ki, "Əsrin müqaviləsi"nin imzalanması ərəfəsində heç 100 milyon dollar valyuta ehtiyatı olmayan respublikamızın bu gün 50 milyard dollar valyuta ehtiyatları vardır. Bu, ölkənin xarici borcunun həcmindən 5 dəfədən çoxdur. Azərbaycan dövləti xarici borclanma siyasətinə həssaslıqla yanaşır, borclanma məsələsini həmişə diqqət mərkəzində saxlayır, onun alınmasında və qaytarılmasında qarşı tərəflə razılaşdırılmış şərtlərin yerinə yetirilməsini strateji vəzifə kimi qiymətləndirir.

Azərbaycanın taleyüklü inkişaf strateqiyası ətrafında cəmiyyət daxilində konsensusun yaradılması, dövlətin milli mənafelərə xidmət edən və yüksək həyat tərzinə təminat verən strateji siyasəti, qloballaşan dünyanın inkişaf kontekstində respublikamızın iqtisadi təhlükəsizliyinin təmini, Azərbaycanın gələcəyi naminə yaranmış ümumxalq birliyi Azərbaycan dövlətinin, Azərbaycan Respublikasının Prezidentinin apardığı uğurlu siyasətin nəticəsidir. Prezident İlham Əliyev bununla bağlı demişdir: "İqtisadi müstəqillik, güclü ordu potensialı, cəsarətli, birmənalı siyasət, milli maraqlarımızın qorunması – bu amillər bizi problemlərdən qoruya bildi. Azərbaycanın gələcəkdə uğurlu inkişafı üçün bütün bu amillər daha da güclənməlidir".

Ölkə rəhbərinin bəyan etdiyi kimi, indi biz müharibə başa çatandan sonra ölkəmizə, insanlarımıza vurulmuş ziyanın həcmini qiymətləndiririk: "Əvvəlcə beynəlxalq ekspertlərin iştirakı ilə biz həm mənzil fonduna, həm tarixi, mədəni abidələrə, həm də ekologiyaya vurulmuş ziyanı qiymətləndirəcəyik. Bununla paralel olaraq infrastruktur layihələri üzrə proseslər artıq başlanıb. Artıq yol tikintisinə dair ilk kontraktlar, digər infrastrukturla bağlı kontraktlar bağlanıb. Mən öz bəyanatlarımın birində demişəm ki, dost ölkələri Azərbaycana cəlb edirik və cəlb edəcəyik".

Qeyd etmək lazımdır ki, birinci kontrakt Türkiyə şirkəti ilə bağlanıb, ikinci kontraktı İtaliyadan olan bir şirkətlə bağlamaq planlaşdırılır. "Bərpa işlərini biz özümüz, öz vəsaitlərimiz hesabına maliyyələşdirəcəyik. Lakin biz istəyirik ki, şəhərlərimizin və kəndlərimizin bərpasına dost ölkələrdən olan şirkətlər cəlb edilsin" – deyən Prezident İlham Əliyev dostluq münasibətləri saxladığımız ölkələrin başçılarına müraciət edərək onların şirkətlərini bu layihələrdə podratçılar kimi fəal iştirak etməyə çağırıb.

Əlbəttə, işğal edilmiş ərazilərin bərpasına özəl sektor da cəlb ediləcək, onlar üçün heç şübhəsiz ki, əlverişli şərait yaradılacaq. Bu gün Azərbaycan sahibkarlığı dövlətimizin strateji resursu kimi qiymətləndirilir və tam əminliklə demək olar ki, yeni yaradılmış Qarabağ Dirçəliş Fondu və digər imkanlı qurumlar işğaldan azad edilmiş əraziləri çiçəklənmiş diyara çevrilməsi üçün sahibkarlarımızı bu nəcib işə cəlb edəcəkdir.

İqtisadiyyatın özünün səmərəliliyi və insan kapitalı amilini nəzərdə tutan dövlət başçısı İlham Əliyev Qarabağda yeni üstün idarəetmə modelinin anonsunu verib. Prezidentin xüsusi nümayəndəliyi institutu–Qarabağ Dirçəliş Fondu yaradılıb. Bu, inkişafın Qarabağ modelinin əsasının qoyulmasıdır və uğur qazanacağı təqdirdə Azərbaycanın qalan ərazisində də tətbiq ediləcək. Qarabağın reinteqrasiyası ilə Azərbaycan iqtisadiyyatında ümumi kapital artacaq. 2021-ci ilin dövlət büdcəsindən ayrılan 2,2 milyard manat vəsait ilə yanaşı, dövriyyəyə cəlb olunan torpaq, meşə, su, faydalı qazıntı, əmlak və mədəni irs kimi sərvətlər kapitalın həcmini– əsas fondları artırır. Azərbaycanda əmək ehtiyatlarının sabit qaldığı şəraitdə də əsas fondların çoxalması kapitaltutumlu iqtisadi artımı sürətləndirir.

Ölkənin iqtisadi qurumlarının bildirdiyi kimi, yaradılan yeni əsas fondlar müasir texnologiyalara əsaslandığından daha çox fondverimliliyi, yəni hər manat kapitala düşən məhsulu artıracaq. Digər tərəfdən, Solou modelinə görə, Qarabağda kapital qoyuluşu sıfırdan başladığına və tarazlıq nöqtəsinə məsafə çox olduğuna görə daha çox dəyər yaradacaq. II Dünya müharibəsindən sonra Almaniya və Yaponiya dağıntıların üzərində belə rəqabətqabiliyyətli iqtisadiyyat qurdular. Qarabağda dövlət sərmayələri katalizator, qeyri-dövlət sərmayələri isə drayver olacaq.



Bu günlərdə "Standard & Poor's" agentliyi Azərbaycanın yerli və xarici valyutada uzunmüddətli suveren kredit reytinqini "BB+/B" səviyyəsində təsdiqləyib, reytinq üzrə proqnozu isə "mənfi"dən "sabit"ə yüksəldib. Agentlik bunu Qarabağın azad olunması və atəşkəs razılaşmasının imzalanması nəticəsində təhlükəsizliyin, maliyyə sektorunun və tədiyyə balansının risklərinin azalması ilə əsaslandırıb.



Beləliklə, Ermənistan üçün 30 illik işğal dövründə talan edib xarabalığa çevirdiyi Qarabağ ağır yükə və buxova çevrildisə, Azərbaycan üçün azad edilmiş və dirçəldilən Qarabağ inkişafın drayveri və ilham mənbəyidir.

Bütövlüksə isə inkişafın Qarabağ modelinin qurulması bərpa prosesinin sürət və səmərəsini yüksəldəcək.

Eyni zamanda, biz ərazilərimizi bərpa etməklə, yenidən qurmaqla həm də ölkəmizin tarixi multikultural ənənələrini, mühtini, milli və dini tolerantlığını bir daha qoruyub-saxlamış, inkişaf etdirmiş olacağıq. Ölkəmiz daim burada yaşamış, bir-birinə qaynayıb-qarışmış millətlərin, azsaylı xalqların, etnik qrupların, fərqli dini konfessiyaların əsl birgə, dinc, birgəyaşayış məkanına çevrilib.

Milli və dini tolerantlıq məsələlərində nəinki yerləşdiyi bölgəyə, bütün dünyaya nümunə olub. Bunu tək biz demirik, bunu dünyanın ən nüfuzlu, ən reytinqli mərkəzləri, dövlət və hökumət başçıları deyirlər, etiraf edirlər. Bu gün Azərbaycan dünyanın həm milli və dini tolerantlq mərkəzi, həm də siyasi, iqtisadi, hərbi, mədəni, humanitar dialoq məkanıdır. Bu məsələlərdə ölkənin Birinci xanımı, Birinci vitse-prezident Mehriban Əliyevanın gördüyü işlər, atdığı addımlar da misilsiz və əvəzsizdir.

Bu baxımdan, biz heç kimə ayrı-seçkilik etmədiyimiz, fərq qoymadığımız kimi, Qarabağda yaşayan və yaşamaq istəyən, Azərbaycanın ərazi bütövlüyünü birmənalı şəkildə qəbul edən, tanıyan, Azərbaycan qanunlarına hörmətlə yanaşan və öz vətəndaşlarımız olan ermənilərlə də birgəyaşayışa razıyıq. Çünki bizim düşmənlərimiz sadə, sıravi ermənilər deyil. Onlar heç zaman bizim hədəfimiz olmayıb, 44 günlük müharibə bir daha bunun əyani sübutu oldu.

Ölkə Prezidentinin Minsk qrupunun həmsədrləri ilə görüşündə də dediyi kimi, bizim erməni xalqı ilə problemimiz yoxdur: "Müharibə zamanı beynəlxalq mediaya verdiyim çoxsaylı müsahibələrimdə mən bildirmişdim ki, bizim erməni xalqı ilə problemimiz yoxdur. Bizim davamız işğalçılarladır, ərazimizi işğal edən cinayətkarlarladır. Ermənilər isə hazırda ölkəmizin müxtəlif bölgələrində yaşadığı kimi, təhlükəsizlik və ləyaqət şəraitində yaşaya bilərlər". Ölkə Prezidenti dəfələrlə bəyan edib ki, Qarbağda Azərbaycan vətəndaşları kimi yaşamaq istəyən ermənilərin güzəranları bizim idarəçiliyimiz altında daha yaxşı olacaq.

Bəli, bütün bunlar Azərbaycanın MDB də daxil olmaqla, bütün qurumlarla səmimi və əsl tərəfdaşlıq münasibətləri qurmasının, onlara töhfələr verməsinin növbəti əyani təsdiqdir. Azərbaycan sözdə deyil, əməldə, konkret addımlarda özünü göstərən, öz töhfələrini verən əsl tərəfdaş, əsl müttəfiqdir. Heç təsadüfi deyil ki, Rusiyanın aparıcı kütləvi informasiya vasitələri Azərbaycan Prezidentinin Qafqazı qonşu dövlətlərin sülh və əməkdaşlıq regionuna çevirmək çağırışını yüksək dəyərləndirmişdir. Hətta Rusiyanın məşhur nəşrlərindən biri açıq şəkildə İlham Əliyevi MDB məkanının lideri adlandırmışdır. Bütün bunlar bir daha İlham Əliyevin liderlik bacarığından və qabiliyyətindən, xarizmasından xəbər verir. Belə bir liderlə fəxr edir və öyünürük.

Bəli, bugünkü uğurlarımıza, İkinci Vətən müharibəsinin Qələbə və Zəfərlə başa çatdırılmasına görə, həm də ulu öndər Heydər Əliyevə, onun uzaqgörən siyasət kursuna borcluyuq, onun ruhuna minnətdarıq, onun ölməz, müqəddəs ruhu qarşısında baş əyirik. Onun qurub-yaratdığı, şah əsəri olan müstəqil Azərbaycanın, qüdrətli, güclü Azərbaycan dövlətinin sükanı bu gün tam etibarlı əllərdədir. Ali Baş Komandan, ölkə Prezidenti cənab İlham Əliyevin uzaqgörən və müdrik milli dövlətçilik xətti və siyasəti ilə Azərbaycan qələbələrdən qələbələrə doğru irəliləməkdədir.

***Ziyad SƏMƏDZADƏ,***
***Milli Məclisin deputatı,***
***akademik***